**"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının qanunundan (Çıxarışlar)**

**"Tibbi sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu**. 28 oktyabr 1999-cu il (03.12.2019-cu ilin dəyişiklikləri ilə).

**Maddə 15-10. İcbari tibbi sığorta üzrə sığorta haqları**

**Maddə 15-10.1.** İcbari tibbi sığorta üzrə sığorta haqları aşağıdakı məbləğlərdə və dərəcələrdə müəyyən edilir:

**Maddə 15-10.1.7.** vergi ödəyiciləri tərəfindən araq (vodka), tündləşdirilmiş içkilər və tündləşdirilmiş içki materialları, likyor və likyor məmulatlarının hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,2 manatı, pivə (alkoqolsuz pivə istisna olmaqla) və pivə tərkibli digər içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,05 manatı, **siqarilla (nazik siqarlar) və tütündən hazırlanan siqaretlər və onun əvəzedicilərinin 1000 ədədinə görə tətbiq edilən aksiz dərəcəsinin 1,5 manatı** və energetik içkilərin hər litrinə görə tətbiq edilən aksiz dərəcəsinin 0,1 manatı.

**Maddə 15-11. İcbari tibbi sığorta haqlarının hesablanması, ödənilməsi və hesabatın təqdim olunması**

**Maddə 15-11.8.** Bu Qanunun 15-10.1.7-ci maddəsində nəzərdə tutulan sığorta haqqı vergi ödəyicisi tərəfindən Azərbaycan Respublikası Vergi Məcəlləsinin 191.1-ci maddəsi ilə müəyyən edilən vaxtda ödənilir.

Bu Qanun 2020-ci il yanvarın 1-dən qüvvəyə minir.